*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2025*
*Səh. 63-68*

https://doi.org/10.62837/2025.10.63

**HƏLİMƏ AĞAŞÜKÜR QIZI AĞAYEVA**
**Azərbaycan İdman Akademiyası**
**Bakı ş., Fətəli xan Xoyski prospekti, 98**
**Email: halima.aghayeva@sport.edu.az**
**https://orcid.org/0009-0003-9159-2549**

# OBRAZLI NİTQİN LİNQVİSTİK ƏSASLARI

## Xülasə

Məqalə Azərbaycan dilində işgüzar və akademik kommunikasiya fənninin tədrisi zamanı obrazlı nitqin öyrənilməsi məsələlərinə həsr olunmuşdur. Müşahidələr nəticəsində bəzi tələbələrin nitq prosesində obrazlı ifadələrdən düzgün istifadədə çətinlik çəkdikləri müəyyən edilmişdir. Təbii ki, ünsiyyət prosesində bu ifadələrdən məqsədyönlü şəkildə istifadə daha səlis və ifadəli nitq formalaşdırmağa imkan yaradır. Obrazlı nitq insanın təfəkkür çevikliyini, dilə estetik münasibətini və kommunikativ bacarıqlarını inkişaf etdirən mühüm amildir. Məqalədə obrazlı nitqin dilçilik baxımından əsasları, onun nitq mədəniyyətinin formalaşmasındakı rolu və tədris prosesində tətbiq imkanları araşdırılmışdır. Eyni zamanda, tələbələrdə obrazlı təfəkkürün formalaşması, bədii təsvir vasitələrindən düzgün istifadə vərdişlərinin yaradılması istiqamətində metodik tövsiyələr verilmişdir. Nəticə etibarilə, obrazlı nitqin tədrisi tələbələrin dil duyumunu, üslubi zövqünü və nitq mədəniyyətini inkişaf etdirməyə xidmət edir.

**Açar sözlər**: *Azərbaycan dili, obrazlı nitq, nitq mədəniyyəti, məcaz, bədii ifadə vasitələri, dil və təfəkkür, kommunikasiya, tədris prosesi, üslubi bacarıqlar, dilçilik.*

Dil elə bir bütöv və təkmilləşməkdə olan hadisədir ki, ayrı-ayrı adamlar ondan bütövlükdə yararlana bilməzlər. Təfəkkürümüzdə yaranan fikirləri ünsiyyət tərəfdaşımıza çatdırmaq üçün uyğun sözlər, ifadələr tapır, onları məzmuna uyğun cümlələrlə işlədə bilirik. İşlətdiyimiz dil vahidləri, cümlə quruluşları fikrin ayrı-ayrı zəncirləri kimi üzə çıxır. Dil olduqca genişdir, zəngindir, obrazlıdır. Onun xəzinəsindən istifadəçisi olduğu xalq istifadə edir. Dil insan təfəkkürünün ifadə vasitəsi olmaqla, cəmiyyətin ən mühüm ünsiyyət alətidir. Ayrı-ayrı şəxslər bu bütöv sistemdən yalnız müəyyən qədər yararlana bilirlər. Təfəkkürdə yaranan fikrin ifadəsi üçün insan uyğun söz və ifadələr seçir, onları məzmuna uyğun cümlələrdə birləşdirir. İşlətdiyimiz dil vahidləri və cümlə quruluşları fikir zəncirinin həlqələrini təşkil edir. Dilin zənginliyi və obrazlılığı onun xalqın mənəvi xəzinəsi olmasından irəli gəlir.

Obrazlı təfəkkür nədir? sualına cavab vermək bizi problemin tədqiqi ilə qarşı-qarşıya qoyur. Bir sıra tədqiqatlarda bu suala cavab axtarılmış və müxtəlif mülahizələr irəli sürülmüşdür.Tədqiqatçıların bir qismi onu bədii üsluba aid edirlər. Həmin alimlərin fikrincə obrazlı nitq seçmə nitq vahidlərinin sərrast düzümündən yaranır. Sehrli ifadələr möcüzəli söz toplusudur. Canlı xalq danışıq dili və deyimləri

obrazlılığın əsas mənbələri hesab olunur. Məcazlar və poetik fiqurlar ən təsirli emosional-ekspressiv ifadə vasitələridir. Obrazlı təfəkkür insanın idrak fəaliyyətində ətraf aləmi fərqli, bədii təsvirlərlə qavramaq bacarığıdır. Bir çox tədqiqatçılar obrazlı nitqi bədii üslubun tərkib hissəsi kimi qiymətləndirirlər. Onların fikrincə, obrazlı nitq dil vahidlərinin seçmə və sərrast düzümündən yaranır. Canlı xalq danışıq dili, atalar sözləri, bənzətmələr və məcazlar obrazlılığın əsas mənbələridir. Məcazlar və poetik fiqurlar nitqin emosional-ekspressiv təsir gücünü artırır, estetik dəyərini yüksəldir.

Təfəkkür, dil və nitq qarşılıqlı şəkildə bir-birinə bağlıdır. Təfəkkürsüz dil, dilsiz təfəkkür mövcud ola bilməz; onların vəhdətində nitq formalaşır. Bu prosesdə məzmun və forma bir-birini tamamlayır. Məzmun təfəkkürün məhsulu, forma isə həmin fikrin dil vasitəsilə ifadəsidir. Nitq şüurun gerçəklik forması kimi insanın daxili düşüncələrini sosial mühitə ötürür. Azərbaycan dilində işgüzar və akademik kommunikasiya fənninin tədrisində bu əlaqələrin düzgün qurulması tələbələrin nitq bacarıqlarının inkişafında mühüm rol oynayır.

Ətrafımızda olan əşyaları hamımız görürük və çox vaxt hadisələrin iştirakçısına çevrilirik. Bu barədə hər birimiz fikir yürüdürük. Obrazlı nitqə yiyələnməmiş insanlar onu sxematik və quru şəkildə ifadə etmək məcburiyyətində qalır. Bəzən bu o qədər də diqqəti cəlb etmir. Obrazlı nitqə sahib olan şəxsdə isə bu hadisələr, faktlar başqa bir cild alır. Başqa sözlə desək, daxildəki gizli qüvvənin köməyilə şüurda əlvan bir lövhə yaranır. Əslində obrazlılıq insan təfəkküründə yaradılan bədii bir lövhədir. Obrazlı söz, ifadə, və fikir insanın daxili aləmini deyil, ətraf mühitin təsirini əks etdirən məfhumlardır. Bəzi araşdırmalarda obrazlı nitq təxəyyüllə, fantaziya ilə eyniləşdirilmişdir. Əslində hər bir obrazlı ifadə şüurlu təfəkkürün məhsuludur. Bədiilik, obrazlılıq güclü qavrayışdan, yüksək təxəyyüldən keçir. Hadisə və faktlara yaxından baxmadan, içdən keçirmədən, mükəmməl mənimsəmədən, onu bədii formaya salmaq çətin məsələdir. “Bədiilik, müxtəsərlik, yığcamlıq, lakoniklik bədii üslubun əsas xüsusiyyətlərindəndir. Bədii üslubda insanı, onun yaşadığı həyatı təsvir etmək üçün dilimizdəki sözlərin müxtəlif məna qruplarından –omonimlərdən (eyni səslənməyə malik olan sözlərdən), sinonimlərdən (yaxın mənanı ifadə edən sözlərdən), antonimlərdən (əks mənanı ifadə edən sözlərdən), məcazların müxtəlif formalarından (bənzətmə, metafora, simvol, kinayə, mübaliğə və s.), hətta vulqar leksika, jarqo, köhnəlmiş və ya dilə yenicə gəlmiş sözlərdən məqamına görə istifadə olunur” fikrini deyən görkəmli alim N.Abdullayev eyni məzmunum müxtəlif şəkillərdə ifadəsinin olduğunu söyləmişdir [ 1, s.234 ].

Biz müəllimlərin tədris etdiyi Azərbaycan dilində işgüzar və akademik kommunikasiya fənninin mühüm vəzifələrindən biri də gələcəyin idmançı mütəxəssislərinin fikirlərini obrazlı ifadə etməyə maraq yaratmaqdan ibarət olmalıdır. Bu tələbələrdə müəyyən motivasiya və xüsusi situasiya yaradır.

Obrazlı nitq ümumi nitq mədəniyyətinin ayrılmaz tərkib hissəsidir. Onun formalaşması savadlılıq səviyyəsi, dilə həssaslıq, məntiqi təfəkkür və estetik duyumla sıx bağlıdır. Təlim prosesində "Dil nədir?", "Nitq nədir?", "Onların oxşar və fərqli cəhətləri hansılardır?" kimi suallara cavab tapmaq tələbələrdə dil şüurunun inkişafına xidmət edir. Obrazlı nitqin əsas məqsədi fikrin estetik gücünü artırmaq, nitqə ahəngdarlıq və təsir gücü verməkdir.

Obrazlı nitq ümumi nitq məfhumundan kənarda qalmır, nitq inkişafı üzrə aparılan işlərin yaxşı nəticəsi kimi dəyərləndirilməlidir. Lüğət ehtiyatı zənginliyi dil vahidlərindən düzgün istifadə, cümlə və mətn quruluşuna diqqət olmadan fikrin tam ifadəsi mümkün deyil. Bu şəraitdə təsirli, məzmunlu nitqdən söhbət ola bilməz, həmçinin də obrazlı nitqdən. "Nitq bədii və obrazlı ola bilər. Bəzən bədii və obrazlı nitqi eyniləşdirirlər. Lakin bu nitq formaları arasında fərq vardır. Obrazlılıq nitqin bütün təzahür növlərində özünü göstərir. Bədii nitq isə yalnız bədii ədəbiyyata xas xüsusiyyətdir. Nitqin bədiiliyi estetik kateqoriyadır. Nitqin bədiiliyini təyin etmək üçün vahid meyar yoxdur" [5].

Obrazlılıq fikrin estetik gücünü artırır, nitqə ahəngdarlıq verir. Yeri gəlmişkən onu da qeyd edək ki, obrazlı nitq hamıya məxsus olmur. Bunun üçün nitqi ifadə edənin savadlılıq səviyyəsi, nitq predmetinə münasibəti, hadisələri təhlil bacarığı, dilə həssaslığı və şəxsi inkişafı vacib şərtlərdir. Problem kontekstində nəzəri dilçiliyi araşdıraraq belə nəticəyə gəldik ki, təlim prosesində "Dil nədir?, "Nitq nədir", "Onların oxşar və fərqli cəhətləri hansılardır?" suallarına cavab verilməlidir. Həmin cavablar isə öz əhəmiyyətini saxlamaqdadır. Azərbaycan dilində işgüzar və akademik kommunikasiya fənninin tədrisində bunlardan geniş şəkildə istifadə edilməkdədir.

Obrazlı nitqdən söhbət açarkən nitq, nitqin növləri, bu növlər arasındakı əlaqələrə də diqqət yetirmək lazımdır. Nitqin digər təzahür formaları kimi obrazlı nitq də insanlar arasında qarşılıqlı münasibətlər sistemidir. Həyati təəssüratlar, təcrübə əsasında təfəkkürdə yaranan və formalaşan fikir dilin səs, söz, cümlə vahidləri vasitəsilə təzahür edir. Təfəkkürsüz dil olmadığı kimi, dilsiz də təfəkkür və heç biri olmadan nitq olmur. Beləliklə, nitqin təfəkkür və dildən kənarda fəaliyyəti mümkünsüzdür. Biri digəri üçün zəmindir, yəni dillə təfəkkürün birləşməsi prosesində nitq yaranır. Ümumi bəşəri hadisə olan təfəkkür hər bir şəxsin özünəməxsus olur. Dilçilik ədəbiyyatlarında nitqin iki tərəfi göstərilir. Məzmun və forma olmaq etibarilə bu iki tərəf: danışan və dinləyən; oxuyan və yazandır.

Məzmun nə zaman yaranır? Təfəkkürün məhsulu olan fikir və səslər, sözlər və cümlələr əsasında. Həm məzmun, həm də forma bir-birindən ayrılmazdır. Biri yoxdursa, deməli o biri də mövcud deyil. Nitq şüurun gerçəklik formasıdır. Məhz buna görə nitq prosesində bir-biri ilə əlaqədə olan iki tərəf olur.

Dilimizin lüğət tərkibindəki sözlər nitqdə həm həqiqi, həm də məcazi mənalarda işlənir. Bütün dillərdə nitqdə işlədilən bir sıra sözlər vardır ki, onlar

həqiqi mənalarından uzaqlaşır. Məcazi mənada işlədilən söz və ifadələr əşyanın bir əlamətini başqa bir obyektə aid edir. Bəzən eyni sözü biz nitqimizdə məqsəddən asılı olaraq həqiqi mənada, bəzən də məcazi mənada işlədirik. Bu zaman obrazlı nitqdə bədii lövhə yaranır və sözün ecazkar qüvvəsi üzə çıxır. Nəzəri dilçilikdə məcazlar iki yerə bölünür: leksik məcazlar və üslubi məcazlar. Leksik məcazlardan tez-tez istifadə edildiyinə görə onlardakı emosiya və rəng çaları adətən zəifləyir. Emosional-ekspressiv təsvirə malik olan təsvir vasitələri isə nitqin obrazlılığını təmin edir.

Dilin ifadə vasitələri – bədii sual, bədii nida, intonasiya, qrammatik, məntiqi və psixoloji fasilələr də obrazlı nitqin emosionallığını, estetik dəyərini artırır. Şifahi nitqdə hər cür xırda hissləri, duyğuları vermək çətinlik törədir. Həmin anda mimika və jestlərlə yanaşı intonasiya da köməyə gəlir. Dilin ifadə vasitələri – bədii sual, nida, intonasiya, məntiqi və psixoloji fasilələr obrazlı nitqin emosional təsirini gücləndirir. Şifahi nitqdə duyğu və hisslərin ifadəsində intonasiya, jest və mimikanın rolu böyükdür. Obrazlı ifadələrdən düzgün istifadə tələbələrin danışıq mədəniyyətini formalaşdırır, onların nitqini monotonluqdan uzaqlaşdırır. Məcazi mənalı söz və ifadələrin mənasının dərk edilməməsi isə nitqin axıcılığını və ifadəliliyini zəiflədir.

Söz insanın düşüncə aləminin əsas ifadə vasitəsidir. O, həm idrakın, həm də emosiyanın daşıyıcısıdır. Doğru seçilmiş söz fikrin təsir gücünü artırır. Şair və natiqlər üçün söz həm yaradıcılıq, həm də təsir alətidir. Bu baxımdan, tələbələrdə dil duyumunu və estetik zövqü formalaşdırmaq üçün obrazlı nitqin tədrisi mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan dili zəngin və çoxqatlı ifadə imkanlarına malikdir. Yazılı və şifahi nitqdə sözün yerində, məzmuna uyğun işlədilməsi üslubi bacarıqları inkişaf etdirir. Obrazlı nitqin formalaşmasında ən təsirli vasitələrdən biri mütaliədir. Mütaliə insanın bədii təfəkkürünü dərinləşdirir, dil hissini gücləndirir və söz ehtiyatını artırır. Bu bacarıqlar tələbələrin həm dil mədəniyyətinin, həm də ümumi dünyagörüşünün inkişafına xidmət edir.

Tələbələrimizin nitqində müəyyən miqdarda obrazlı ifadələr işlənir. Bəllidir ki, nitqin məzmunu söz, ifadə və cümlələrdən ibarətdir. Biz müəllimlərin vəzifəsi hər bir sözün, ifadənin cümlənin məzmununu tələbələrə aydın izah etməkdir. Məcazi mənada işlənən söz və söz birləşmələrinin mənasını dərk etmədikdə təhsil alanlar dilin nitqdə ifadə etdiyi axıcılığı, oynaqlığı, əhval-ruhiyyəni anlamaqda çətinlik çəkirlər.

Fərqi yoxdur, istər şirin olsun, istər kobud. Yerində işlədilən sözün təsiri çağlayıb, məcrasını dağıdan sellərdən daha güclüdür. Leksik olaraq, bir anlayışın səslə ifadə olunan nitq vahidi - söz keçmişdən bu günə qədər istifadə edildiyi kimi, gələcəkdə də ehtiyac olduqca istifadə olunacaqdır. Söz insanın tutan əli, görən gözüdür. Natiq və şairlərin dayağı hər zaman söz olmuş, sözlə nitqlərini mənalı və təsirli etmişlər.

Unutmamalıyıq ki, Azərbaycan dilimiz zəngin, çalarlı və rəngarəngdir. Bu səbəbdən həm yazılı nitqdə, həm də şifahi nitqdə sözü, ifadəni düzgün, səlis, yerində işlətmək, məntiqi və linqvistik təzahürləri qarşılaşdırmaq günümüzdə ali təhsil müəssisələrində tədris prosesində mühüm amillərdən biri hesab olunur. Çünki hər bir tələbəni şəxsiyyət kimi cəmiyyətə yetişdirmək istəyiriksə, ilkin növbədə, onların şifahi nitqini inkişaf etdirməliyik.

Ədəbi dili yazılı və şifahi nitq formalaşdırır. Tələbələrin şifahi və yazılı nitqini inkişaf etdirmək üçün bir çox üsullara əl atmaq olar; obrazlı nitqin formalaşdırılmasında isə mütaliə ən təsirli vasitədir. Əsas məqsəd tələbələrin obrazlı nitq bacarığını formalaşdırmaq və əldə edilən bilikləri vərdişlərə çevirmək və inkişaf etdirməkdir. Obrazlı nitq bədii təfəkkürü inkişaf etdirməklə oxunulan materialın məzmununun, ideyasının dərindən mənimsənilməsinə, elmi dünyagörüşünün genişlənməsinə, ümumi mədəniyyətinin formalaşmasına kömək edir.

Nəticə etibarilə, obrazlı nitqin linqvistik əsaslarının öyrənilməsi və onun tədris prosesində tətbiqi tələbələrin estetik düşüncəsini, məntiqi ardıcıllığını və kommunikativ qabiliyyətlərini inkişaf etdirir. Bu, həm dilin, həm də düşüncənin ahəngdar şəkildə formalaşmasına, gələcək mütəxəssislərin peşəkar nitq mədəniyyətinin yüksəlməsinə şərait yaradır.

## Ədəbiyyat

1. Abdullayev N., Məmmədov Z. Nitq mədəniyyətinin əsasları. Bakı. 2013

2. Əliyev K. Nitq mədəniyyəti və üslubiyyatın əsasları. Bakı .2001.

3. Məmmədli N. Azərbaycan dilində işgüzar və akademik kommunikasiya. Bakı.2021

4. http://anl.az/el/Kitab/2014/Azf-277620.pdf

5.https://kayzen.az/blog/aforizmler/15800/s%C3%B6z%C3%BCnq%C3%BCdr%C9%99ti.html

6. https://az.wikipedia.org/wiki/Nitq

7. https://www.medeniyyet.az/page/news/17/Niye-bele-deyilir.html

**HALIMA AGHAYEVA**

## LINGUISTIC FOUNDATIONS OF FIGURATIVE SPEECH

### Summary

The article is devoted to the study of figurative speech in the teaching process of the “Business and Academic Communication in Azerbaijani” course. Observations have shown that some students experience difficulties in using figurative expressions correctly during speech. The purposeful use of such

expressions contributes to the development of fluent and expressive speech. Figurative speech enhances cognitive flexibility, aesthetic sensitivity to language, and communicative competence. The paper explores the linguistic foundations of figurative speech, its role in the formation of speech culture, and its practical application in the educational process. In addition, methodological recommendations are proposed for developing figurative thinking and teaching students to use artistic devices appropriately. Ultimately, teaching figurative speech serves to develop students' linguistic intuition, stylistic taste, and overall speech culture.
**Key words**: *Azerbaijani language, figurative speech, speech culture, metaphor, artistic expression, language and thinking, communication, teaching process, stylistic skills, linguistics.*

**ХАЛИМА АГАЕВА**

## ЛИНГВИСТИЧЕСКИЕ ОСНОВЫ ОБРАЗНОЙ РЕЧИ

### Резюме

Статья посвящена изучению образной речи в процессе преподавания дисциплины «Деловая и академическая коммуникация на азербайджанском языке». Наблюдения показали, что некоторые студенты испытывают трудности при правильном употреблении образных выражений в речи. Целенаправленное использование таких выражений способствует формированию более связной и выразительной речи. Образная речь развивает гибкость мышления, эстетическое восприятие языка и коммуникативные навыки. В статье рассматриваются лингвистические основы образной речи, её роль в формировании речевой культуры и возможности применения в учебном процессе. Также приводятся методические рекомендации по развитию образного мышления и формированию у студентов навыков правильного использования художественных средств. В конечном итоге обучение образной речи способствует развитию языкового чутья, стилистического вкуса и речевой культуры студентов.

**Ключевые слова:** Азербайджанский язык, образная речь, речевая культура, метафора, художественные средства, язык и мышление, коммуникация, учебный процесс, стилистические навыки, лингвистика.

**Rəyçi: filologiya üzrə fəlsəfə doktoru Şükufə Ağakişiyeva**